**Imanli M.N.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.84-90**
**UDC: 343.97**

# The impact of wars on the environment is the impact of man on nature is the strongest and worst form

**Abstract:** Ecological balance means a situation that ensures planned, proportional development of ecology.More precisely, the condition of providing the current supply and demand of ecology is considered.

The main source of ecological imbalance is the presence of various wastes.Waste includes vehicles, thermal and nuclear power plants, thermal power centers, boiler installations, ferrous and non-ferrous metallurgy, coal industry, oil and gas extraction enterprises, oil refining and petrochemical industry, construction materials industry, agricultural field, household waste and etc. includes.The intensive development of production and the desire to obtain high profits in the world disturbs the ecological balance. According to the official information of the UN, 50% of environmental pollution falls on the share of the United States.By creating industrial areas in less developed countries, big states work against their nature and destroy their national and natural resources. During the last 300-400 years, more than 130 species of birds, many plants and animals have been destroyed.

**Keywords:** international law; ecological balance; harmful chemicals; environmental terror; environmental protection; occupied territories; environmental challenges; bacteriological weapons; regional and bilateral agreements.

## References

1. Constitution of the Republic of Azerbaijan, Baku, 2015 (in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan, Baku, 2016 (in Azerbaijani).
3. Imanli M.N. Criminal law. Special part. Textbook, Baku, 2019, 418 p. (in Azerbaijani).
4. Law of the Republic of Azerbaijan “On environmental safety”. Available at: https://e-qanun.az/framework/3851 (in Azerbaijani).
5. Decree of the President of the Republic of Azerbaijan on additional measures in the field of issues arising from the international conventions and agreements to which the Republic of Azerbaijan has joined on environmental protection. http://eco.gov.az/az/426-additional-measures-in-the-field-of-issues-from-etraf-muhitin-mehafizesi-ile-agli-azerbaycan-republikaninin-souldugu-international-conventions-and-agreements- about-the-responsibility-of-the-president-of-Azerbaijan (in Azerbaijani).
6. Mammadov G. Ch., Khalilov M.Y. Ecology, environment and man. Baku, Elm Publ., 2006, 608 p. Ecology and environmental protection is a global problem of the time. (in Azerbaijani)
7. What are the 7 types of weapons banned in the world? https:/www.bildirchin.az/dunyada-gadagan-olunmus-7-silah-novu-hansidir/ (in Azerbaijani).

[♦] **Imanli Muhammad Naghi oglu** - Doctor of Law, Professor, Head of the “Legal Support of State Security” Deparment of the public legal entity of the Institute of Law and Human Rights under the public legal entity Center for Legal Expertise and Legislative Initiatives (Azerbaijan). E-mail: mahammad_imanli@mail.ru

8. Dashgin Ganbarov. International legal regulation in the field of environmental protection. Revival-XXI century, 2010, No. 143-144, p. 228-234. (in Azerbaijani).

**İmanlı M.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.84-90**
**UOT: 343.97**

## Müharibələrin ətraf mühitə təsiri insanın təbiətə təsirinin güclü və ən pis formasıdır

**Xülasə:** Ekoloji tarazlıq dedikdə ekologiyanın plana uyğun, proporsional inkişafını təmin edən vəziyyət başa düşülür. Daha doğrusu, ekologiyanın mövcud tələb və təklifinin təmin edilməsi vəziyyəti nəzərdə tutulur.

Ekoloji tarazlığın pozulmasında əsas mənbə müxtəlif tullantıların mövcudluğudur. Tullantılara nəqliyyat vasitələri, istilik və atom elektrik stansiyaları, istilikelektrik mərkəzləri, qazan qurğuları, qara və əlvan metallurgiya, kömür sənayesi, neft-qazçıxarma müəssisələri, neftayırma və neft-kimya sənayesi, inşaat materialları sənayesi, kənd təsərrüfatı sahəsi, məişət tullantıları və s. daxildir. Dünyada istehsalın intensiv inkişafı və yüksək mənfəət əldə etmək arzusu ekoloji tarazlığı pozur. BMT-nin rəsmi məlumatına görə, ətraf mühitin çirklənməsinin 50%-i ABŞ-ın payına düşür. İri dövlətlər az inkişaf etmiş ölkələrdə sənaye sahələrini yaratmaqla, onların təbiətinə qarşı zor işlədirlər, onların milli-təbii sərvətlərini məhv edirlər. Son 300-400 il ərzində 130-dan çox quş növü, bir çox bitki və heyvanlar məhv edilmişdir [1].

**Açar sözlər:** beynəlxalq hüquq; ekoloji tarazlıq; zərərli kimyəvi maddələr; ekoloji terror; ətraf mühitin mühafizəsi; işğal olunmuş ərazilər; ekoloji problemlər; bakterioloji silahlar; regional və ikitərəfli müqavilələr.

Müharibə təkcə insanlar üçün deyil, həm də təbiət üçün öldürücü bir amildir. Müharibələrin ətraf mühitə təsiri insanın təbiətə təsirinin güclü və ən pis formasıdır. Müharibə zamanı düşmən sahəsinə od vurub yandırmaq, odlu silahlardan atəş açmaq, ağır texnikanı müharibəyə cəlb etmək, gəmi vasitəsilə olan müharibəni sualtı qayıqlarla əvəz etmək, qırıcı təyyarələrdən dəhşətli bombalar tökmək, nəhayət, kütləvi qırğın silahları olan atom və hidrogen bombalarından, qitələrarası raketlərdən, kimyəvi və bakterioloji silahlardan istifadə etmək dünyada təkcə insanı deyil, bütün canlı təbiəti fəlakətlə üzbəüz qoyur. Kimyəvi zəhərli maddələrdən döyüş sursatı kimi istifadə etmək bəşəriyyətin tarixi qədər qədimdir. Roma, yunan, fars, ingilis tarixində bu barədə yazılı mənbələrdə kifayət qədər məlumatlara rast gəlmək olar. Müasir döyüş vasitəsi kimi kimyəvi zəhərli maddələr Birinci Dünya müharibəsində tətbiq edilmişdir. 22 aprel 1915-ci ildə almanlar Belçikanın Yepres bölgəsində fransızlara qarşı xlor-zəhərləyici maddəsindən istifadə etmişlər. Bunun nəticəsində fransızlar 50000 nəfər tələfat vermişlər. Həmin zəhərli maddələrdən ruslara qarşı istifadə edilməsi nəticəsində minlərlə insanlar həlak olmuş və ekoloji tarazlığa ciddi ziyan dəymişdir. İkinci Dünya müharibəsində Xirosimaya atılmış atom bombasının törətdiyi xəstəliklər və fəlakətlər hələ də

♦ **İmanlı Məhəmməd Nağı oğlu** - hüquq elmləri doktoru, professor, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi publik hüquqi şəxsin tabeliyində olan Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin "Dövlət Təhlükəsizliyinin Hüquqi Təminatı" şöbəsinin müdiri (Azərbaycan). E-mail: mahammad_imanli@mail.ru

davam edir. Adanın ətraf mühiti indi də həyat üçün yararsızdır. Suların çirkləndirilməsi işğal olunmuş ərazilərdə yerləşən və oradan keçən su mənbələri (göllər, su anbarları, çaylar, kanallar və s.) həmin ərazilərlə bərabər ətraf ərazilərin də ekologiyasında mühüm rol oynayır. İşğal olunmuş ərazilərdən axan çaylar hazırda ermənilər tərəfindən müxtəlif mənşəli tullantılarla və çirkab sularla çirkləndirilir. Ermənistan ərazisindən gün ərzində 2,1 milyon $m^3$ çirkab sular təmizlənmədən birbaşa Araz çayına axıdılır. Arazın çirkləndirilməsi Ermənistan ərazisindən gələn Xonaşen, Qarqarçay, Oxçuçay, Bazarçay, Bəsitçay, Həkəriçay, Köndələnçay, Tərtərçay və Xaçınçay vasitəsilə baş verir ki, bu gün Ermənistanın filiz mədənlərinin tullantıları ucbatından ölü bir çaya dönmüş Oxçuçayda vəziyyət daha acınacaqlıdır. Ermənistan ərazisində yerləşən Qaçaran mis-molibden, Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli sulan və Qafan-Qacaran şəhərlərinin (o cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji çirkli suları təmizlənmədən (zərərsizləşdirilmədən) birbaşa Azərbaycan ərazisində Zəngilan rayonunun Şərikan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini “Ölü zonaya” çevirmişdir. Çayın Azərbaycan ərazisinə düşən yatağının 43 kilometri, su toplayıcı sahəsinin isə 455 $km^2$ - daim çirklənməyə məruz qalır [2].

Nəticədə çay suyunda əzəldən formalaşmış mikroflora-faunada məhv olmuş, öz-özünü təmizləmə prosesi dayanmışdır. Qərbdən şərqə axan Xonaşen çayının 200-300 metrliyində yerləşən Martuni rayonunun mərkəzi xəstəxanasının çirkab suları və tullantıları, eləcədə həmin çayın 200 metrliyində və həmin ərazidə yerləşən donuzçulıq və maldarlıq kompleksinin tullantılarının həmin çaya tökülməsi nəticəsində çirkləndirilir. Qeyd etmək lazımdır ki, işğal olunmuş ərazidən keçən bu çayın fermerlər tərəfindən qarşısının kəsilməsi nəticəsində kiçik göl əmələ gəlmişdir. Həmin su mənbəyi bu ərazidə yeganə su mənbəyidir ki, oradan həm içməli su kimi, həm də müxtəlif məqsədlər (əkin sahələrinin və heyvanların suvarılması və s.) üçün istifadə edilir. Həmin su mənbəyi götürülmüş ekoloji sanitar nümunələrdə mikrobların normadan dəfələrlə çox olması müəyyənləşdirilmişdir [3].

Əsasən yağıntılar zamanı sellər nəticəsində daha çox artan suyun müqabilində çay dahada çirkləndirilir və çayın suyu axaraq Orcenikidze adlı kanala tökülür. Qərbdən - şərqə axan digər çay - Qarqarçay əsasən yağışlar və qar suları hesabına qidalanır və Ağdam, Əsgəran, Xankəndi və digər yaşayış məntəqələri yaxınlığında müxtəlif mənşəli tullantılarla çirkləndirilir. Çay və göllərin müxtəlif mənşəli tullantılarla çirkləndirilməsinə birbaşa təsir göstərir. Naxçıvan Muxtar Respublikasının təbii mühitində mühüm rol oynayan Araz çayının ekoloji vəziyyəti daha acınacaqlıdır [4].

Beləki, Ermənistan tərəfindən Araz çayının uzun illər boyu çirkləndirilməsi, nəticədə qiymətli balıq növlərinin kökünün kəsilməsinə və azalmasına səbəb olmuşdur. Əvvəllər qeydə alınmış 21 balıq növünün son 10-15 il ərzində məhv olaraq 16 növə enməsi müəyyənləşdirilmişdir. Araz çayının toksik mənşəli maddələrlə çirkləndirilməsi suyun biokimyəvi və fiziki tərkibinin dəyişməsinə səbəb olmuşdur. Cənubi Qafqaz, regionunda Ermənistan tərəfindən torpağın, atmosferin və ekoloji tarazlığın pozulmasına zəmin yaradılır. Araz çayında turşuluq göstəricisi pH 2,4-ə enmiş, mikroblara 180-200 dəfə azalmış, çay sahələri boyu su ilə təmasda olan bitkilər aləmi isə məhv olmaq təhlükəsi ilə qarşılaşmışdır. Araz çayında təbii yolla neytrallaşan və müəyyən edilən üzvü çirkləndiricilər normadan dəfələrlə artıqdır. Göstərilən sahədə sudakı fenolların miqdarı 220-1160 dəfə, ağır metal duzları (mis, molibden və s.) 36-48 dəfə, azot - fosfor duzları isə 73-113 dəfə norma üzrə qəbul edilmiş qatılıqdan yüksəkdir. Eyni zamanda yüksək temperatura malik sənaye mənşəli tullantı suları çayın temperatur və qaz rejiminə mənfi təsir edir. Çayın dibindən

götürülmüş nümunələrin analizlərinin nəticələri göstərir ki, Araz çayında ağır metalların miqdarı normadan xeyli çoxdur. Suyun tərkibində olan toksik mənşəli maddələrin miqdarı da 50% artıqdır. Bu səbəbdən də Araz çayının müxtəlif toksik mənşəli tullantılarla çirkləndirilməsi flora və faunanın mövcudluğu üçün təhlükə yaratmışdır. Aşağı Veysəlli yaşayış məntəqəsi və Ağburun yaşayış məntəqəsi istiqamətində axan Qarasu çayı ermənilər tərəfindən çirklənməyə məruz qaldığı üçün məişətdə istifadə edilməsi tamamilə qeyri-mümkündür. Füzuli rayonunun ərazisində axan Köndələnçay və Quruçayın suyundan istifadə etmiş əhalinin bədənində dəri xəstəliklərinin yaranması faktları müşahidə edilmişdir və həmin çayların ermənilər tərəfindən çirkləndirilməsi müxtəlif xəstəliklərin yaranmasına səbəb olmuşdur. Kür və Araz çaylarının əsas çirklənmə mənbələri qonşu dövlətlərin, xüsusəndə Ermənistan ərazisində bu çaylara bilavasitə axıdılan zərərli kimyəvi maddələr və üzvi maddələrdir [5].

Üzvimaddələrlə çirklənməyə səbəb bu ölkələrin ərazisində kanalizasiya sistemlərinin yararsız vəziyyətdə olması və yaxud tamamilə olmamasıdır. Zərərli kimyəvi maddələrlə çirklənmə isə Ermənistan ərazisində fəaliyyət göstərən dağ-mədən, kimya və metallurgiya sənayesi müəssisələrindən atılan tullantılar hesabına baş verir. Qarabağ və ətraf ərazilərdə su hövzələrinin çirkləndirilməsi artıq adi hal almışdır. Hətta Ermənistanın dövlət statistika orqanları işğal altındakı Azərbaycan ərazilərində su hövzələrinə atılan zərərli maddələrin miqdarı barədə çəkinmədən məlumat yayırlar. “İragir.am” saytında isə ekspert Haira Ayrumayan yazır ki, Sərsəng su anbarı baxımsız haldadır. Bu baxımsızlıq bölgənin ekoloji tarazlığını pozur. Onun yazdığına görə, Sarksiyan hakimiyyətinin bu vasitə ilə azərbaycanlıları hədələməsi demokratik prinsiplərə və beynəlxalq hüquq normalarına tamamilə ziddir. O, bunu ekoloji fəlakət adlandırıb. Ekspertin qənaətinə görə, baxımsızlıq və xidmət göstərilməməsi səbəbindən qəza vəziyyətinə düşüb. Məhz texnogen və ya təbii fəlakət nəticəsində baş verə biləcək qəza bölgədə yaşayan mülki əhalinin kütləvi məhvinə, humanitar fəlakətə, ekoloji və bioloji böhrana səbəb ola bilər [6, s. 35-36].

Ermənistan tərəfindən növbəti ekoloji terror aktı Azərbaycanın işğal olunmuş və ermənilərin hərbi hissələri yerləşdirilmiş Gülüstan və Talış kəndlərindən keçən, mənbəyini Murov dağından götürən İnciçay olmuşdur. 19 noyabr 2010-cu il tarixində İnciçayda kəskin çirklənmə müşahidə edilib. Belə ki, Tapqaraqoyunlu kənd sakinləri tərəfindən onların yeganə su mənbəyi olan İnciçayda gündüz saat 14:00-15:00 radələrindən başlayaraq çay suyunun qatı köpüklə axdığı müşahidə olunub və bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 13 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsinə (Goranboy, Naftalan, Samux, Daşkəsən, Göygöl) məlumat verilib. Ekoloji vəziyyətin qiymətləndirilməsi üçün Nazirliyin mütəxəssislərindən ibarət operativ qrup yaradılıb və qrup tərəfindən qısa müddət ərzində həmin su obyektində birbaşa mobil cihazlar vasitəsilə ölçmə işləri görülüb. Götürülmüş su nümunələrində zərərli kimyəvi maddələr üzrə nazirliyin mərkəzi analitik laboratoriyasında analizlər aparılıb və nəticədə çay suyunun keyfiyyətinin ciddi dərəcədə pisləşməsi qeydə alınıb. Təhlillər göstərir ki, hidrokarbonatlı su qrupundan olan İnciçayın suyunda hidrogen göstəricisi kəskin enərək qələvi mühitdən turş mühitə keçmiş, suyun oksigen rejimi xeyli pozulmuşdur [6, s. 41; 7].

Zərərli çirkləndiricilərdən olan səthi aktiv sintetik üzvi maddələrin (detergentlərin), azot birləşmələrinin, əsasən də ammonium və metal birləşmələrinin miqdarı normadan dəfələrlə çox olub. Azərbaycan ərazisindən axan çayların əksəriyyətinin öz mənbəyini Ermənistan, yaxud onun işğal etdiyi ərazilərdən götürür. Bu da işğalçılar tərəfindən Azərbaycan ərazilərinə, əhaliyə və iqtisadiyyata qarşı terror-təxribat əməllərinin aparılmasına şərait yaradır. Azərbaycan Respublikasının ərazilərindəki su ehtiyatlarının çirkləndirilməsi Ermənistanın ekoloji terror

siyasətinin əsas təsir elementlərindən sayılır. Nəzərə alsaq ki, Cənubi Qafqazın ümumi şirin su ehtiyatlarının 62%-i Gürcüstanın, 28%-i Ermənistanın və yalnız 10%-i Azərbaycanın payına düşür, bu halda problemin kifayət qədər ciddi olduğunu anlamaq mümkündür. Eyni zamanda qeyd olunmalıdır ki, Azərbaycan ərazisinin 3/4 hissəsi ölkəmizin ən geniş su arteriyası olan Kür çayı hövzəsinin aşağı nahiyəsində yerləşir. Sadalanan reallıqlar fonunda kimyəvi və bioloji cəhətdən çirkləndirilmiş 350 mln. kub metrdən artıq su kütləsi hər il Ermənistan ərazisindən Kür çayı hövzəsinə tökülür.

İl ərzində ümumi tullantıların ödəmə məbləği 50 manat/ton x 350 mln kub.m/il (suyun həcm çəkisi 9810 N/m$^3$) -17167 500 000 manat/il təşkil edir. Tullantı suların təxmini olaraq 50 % mexaniki və 80% bioloji təmizlənməsi üçün 0.43 manat/kub.m vəsait tələb olunur. Bu hesabla, çaylarda tullantıların təmizlənməsi üçün tələb olunan vəsaitin həcmi: 350 mln. kub.m/il x 0.43 manat/kub.m - 150 500 000 manat/il Dəymiş zərərin ümumi həcmi 17 318 000 000 manat təşkil edir. Nəticə: Nəzərə alsaq ki, su hövzələrinə dəymiş ziyan nəticəsində itirilmiş xalis gəlir 17 857 142 857,1 manat idi, onda (17 318 000 000 manat 1 17 857 142 857,1 manat) 2 - 17 587 571 428,6 manat işğal ərzində dəymiş zərərin həcmi kimi qiymətləndirilir. Azərbaycanın su ehtiyatlarını yaradan çaylar Ermənistanda sənaye və məişət təhlükəsizliyi baxımından beynəlxalq nüvə sahəsində ixtisaslaşmış bir sıra qurumların da problemli saydığı Metsamor AES-in tullantıları ilə çirklənməyə məruz qalır ki, bu da beynəlxalq hüquq normalarının ciddi surətdə pozulması deməkdir. Çünki məhz həmin beynəlxalq sənədlərə əsasən, içməli su mənbələrinə axıdılan tullantılar zərərsizləşdirilməlidir. Lakin Ermənistan ərazisində belə tullantıların təmizlənməsindən söhbət belə gedə bilməz. Ermənistan ərazisindən Azərbaycana daxil olan sularda bütün növ kimyəvi və zərərli maddələr normadan dəfələrlə artıq olduğundan, çayboyu zonada olan flora və faunaya mənfi təsir edə, Azərbaycan əhalisinin genefonduna, su axarları boyu yaşayan əhali arasında müxtəlif xəstəliklərin artmasına və yayılmasına gətirib çıxara bilər ki, Ermənistanın yürütdüyü bu siyasəti məhz ekoloji terror kimi qiymətləndirmək lazımdır. Beynəlxalq çay və göllərin çirklənməsinə yol verilməməsi və onların canlı ehtiyatlarının mühafizəsi müvafiq sahilyanı dövlətlərin üzərinə düşən vəzifədir [8, s. 228-234].

Bu vəzifələrin həyata keçirilməsi üçün dövlətlər regional və ikitərəfli müqavilələr bağlayırlar. Müqavilələrin başlıca məzmunu ondan ibarət olur ki, sahilyanı dövlətlər beynəlxalq çayın və gölün mövcud çirklənməsinin azaldılması üçün bütün zəruri tədbirləri görməlidirlər. Belə tədbirlərin məqsədi digər dövlətə və ya dövlətlərə, həmçinin, dünya okeanı sularına dəyə bilən zərərin qarşısını almaqdan ibarətdir. Bu müqavilələrdə göstərilir ki, suların çirklənməsində təqsirli olan dövlət bütün dəymiş zərəri ödəməlidir.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı, 2015
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı, 2016
3. İmanlı M.N. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. - Bakı, 2019. - 418 s.
4. Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3851
5. Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvemsiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. [Elektron resurs]. URL: http://eco.gov.az/az/426-etraf-

muhitin-mehafizesi-ile-bagli-azerbaycan-respublikasinin-qosuldugu-beynelxalq-konvensiya-ve-sazislerden-ireli-gelen-meseleler-sahesinde-elave-tedbirler-haqqinda-azarbaycan-resplikasi-prezidentinin-serencami

6. Məmmədov Q.Ç., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan. - Bakı: Elm, 2006. - 608 s. Ekologiya və ətraf mühitin mühafizəsi dövrün qlobal problemidir.

7. Dünyada qadağan olunmuş 7 silah növü hansıdır? [Elektron resurs]. URL: https:/www.bildirchin.az/dunyada-qadagan-olunmus-7-silah-novu-hansidir/

8. Daşqın Qənbərov. Ekologiyanın mühafizəsi sahəsində beynəlxalq hüquqi tənzimləmə // "Dirçəliş-XXI əsr", -2010. № 143-144.- S. 228-234.

**Иманли М.Н.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.84-90**
**УДК: 343.97**

## Воздействие войн на окружающую среду – это воздействие человека на природу самая сильная и худшая форма

**Аннотация:** Экологический баланс означает ситуацию, обеспечивающую планомерное, пропорциональное развитие экологии.Точнее, рассматривается условие обеспечения текущего спроса и предложения экологии.

Основным источником экологического дисбаланса является наличие различных отходов.К отходам относятся транспортные средства, тепловые и атомные электростанции, тепловые энергетические центры, котельные установки, предприятия черной и цветной металлургии, угольной промышленности, объектов нефтегазодобычи, нефтеперерабатывающей и нефтехимической промышленности, промышленности строительных материалов, сельскохозяйственной отрасли, бытовые отходы и др. включает.Интенсивное развитие производства и стремление к получению высоких прибылей в мире нарушает экологический баланс. По официальной информации ООН, 50% загрязнения окружающей среды приходится на долю США. Создавая промышленные зоны в менее развитых странах, большие государства действуют против их природы и уничтожают их национальные и природные ресурсы. За последние 300-400 лет было уничтожено более 130 видов птиц, многие растения и животные.

**Ключевые слова:** международное право; экологический баланс; вредные химические вещества; экологический террор; охрана окружающей среды; оккупированные территории; экологические проблемы; бактериологическое оружие; региональные и двусторонние соглашения.

♦ **Иманли Мухаммад Наги оглы** - доктор юридических наук, профессор, зав. отделом «Правовое обеспечение государственной безопасности» публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовой экспертизы и законодательных инициатив» (Азербайджан). E-mail: mahammad_imanli@mail.ru

**Библиография**

1. Конституция Азербайджанской Республики. - Баку, 2015 (на азерб. яз.).

2. Уголовный Кодекс Азербайджанской Республики. - Баку, 2016 (на азерб. яз.)

3. Иманлы М.Н. Уголовное право. Специальная часть. Учебник. - Баку, 2019. – 418 с. (на азерб. яз.).

4. Закон Азербайджанской Республики «Об экологической безопасности». [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/3851 (на азерб. яз.).

5. Указ Президента Азербайджанской Республики о дополнительных мерах в области вопросов, вытекающих из международных конвенций и соглашений, к которым присоединилась Азербайджанская Республика по охране окружающей среды. [Электронный ресурс]. URL: http://eco.gov.az/az/426-additional-measures-in-the-field-of-issues-from-etraf-muhitin-mehafisesi-ile-agli-azerbaycan-republikaninin-souldugu-international-conventions- about-the-responsibility-of-the-president-of-Azerbaijan (на азерб. яз.).

6. Мамедов Г.Ч., Халилов М.Ю. Экология, окружающая среда и человек. – Баку: Элм, 2006. – 608 с. Экология и охрана окружающей среды – глобальная проблема современности (на азерб. яз.).

7. Какие 7 видов оружия запрещены в мире? [Электронный ресурс]. URL: https://www.bildirchin.az/dunyada-gadagan-olunmus-7-silah-novu-hansidir/ (на азерб. яз.).

8. Дашгин Ганбаров. Международно-правовое регулирование в области охраны окружающей среды // Возрождение-XXI век. -2010. - №143-144. - С.228-234 (на азерб. яз.).